**https://doi.org/10.58225/tim.2025-3-232-236**

**R.İ.Qasımov**
***doktorant, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ruslan.qasımov.041@dmail.com***

*Məqalə redaksiyaya daxil olub 03.10.2025*
*The article was received by editorial board on 03.10.2025*
*Статья принята к печати 03.10.2025*

# TİKİNTİ SƏNAYESİNİN RƏQABƏTQABİLİYYƏTLİ İDARƏ EDİLMƏSİNDƏ PROQNOZLAŞDIRMANIN ROLU

**Xülasə**

*Məqalədə tikinti sənayesinin rəqabətqabiliyyətli idarə edilməsində proqnozlaşdırmanın rolu geniş araşdırılmışdır. Daha sonra qeyd olunur ki, ilkin proqnoz mərhələsində sifarişlər əsasında tikinti xidmətlərinə olan tələb müəyyənləşdirilir, bütün bu tədbirlər isə maliyyə resursları ilə təminatı məsələsi də nəzərə alınmaqla səmərəli inestisiya layihələrinin seçilməsi ilə davam etdirilir. Tikinti sənayesinin bir sıra xüsusiyyətlərinin plan və proqnoz hesablamalarında mütləq nəzərə alınması vurğulanmışdır.*

*Məqalədə Azərbaycanda təsərrüfatın səmərəli idarə olunması üçün bazar iqtisadi sisteminin mühüm elementi kimi investisiya prosesinin yeni modellərinin formalaşması zəruriliyi qeyd edilmişdir.*

*Sonda Azərbaycan iqtisadiyyatında sağlam rəqabətin təkmilləşdirilməsinin onun başlıca funksiyalarından olan stimullaşdırmaya güclü dəstək olacağını və ölkəyə yeni texnologiyanın gətirilməsini, rəqabət qabiliyyətli iqtisadiyyatın səmərəli quruluşunun formalaşdırılması imkanı yaradacağı göstərilmişdir*

***Açar sözlər:*** *tikinti sənayesi, tikinti kompleksi, proqnozlaşdırma, rəqabətqabiliyyətlilik, investisiya prosesi, infrastruktura, tikinti materialı, tikinti təşkilatı.*

Tikinti sənayesinin bir sıra xüsusiyyətləri vardır ki, həmin xüsusiyyətlər plan və proqnoz hesablamalarında mütləq nəzərə alınmalıdır. Sözügedən sahənin əsas xüsusiyyətlərindən biri odur ki, bu sahənin məhsullarının istehsalı uzun bir zaman ərzində, əmək, maddi, maliyyə resursları hesabına başa gəlir. Cari dövriyyədən əhəmiyyətli dərəcədə resurslar ayrılaraq sözü gedən sahəyə yatırılır və obyekt tam olaraq istifadəyə verilmədən ölü kapital olaraq hesab edilər. Bu səbbədən də bu sahə üçün çox variantlı, hesablamaların aparılması olduqca əhəmiyyətlidir.

Tikinti sənayesi əsas istehsal fondlarının təkrar istehsalını təmin etməklə sosial və iqtisadi problemlərin həllində mühüm rol oynayır. O, xalq təsərrüfatında texniki tərəqqiyə, ölkənin məhsuldar qüvvələrinin rasional yerləşdirilməsinə, inkişaf sürətinin yüksəlməsinə, ictimai istehsalda sahə və ərazi proporsiyalarının yaxşılaşdırılmasına xidmət edir.

Tikinti bütün maddi istehsal sahələrinin və qeyri istehsal sferasının inkişaf etdirilməsinin, mənzil probleminin həll edilməsinin mühüm vasitələrindən biridir.

Tikinti kompleksi bir-biri ilə qarşılıqlı əlaqədə olan iki sektordan ibarətdir-tikinti və tikinti materialları, qurğuları və detalları istehsalı sənayesi sektorlarından ibarətdir.

Kompleksin elmi təminatı layihə-axtarış, konstruktor-texnoloji təşkilatlar şəbəkəsindən ibarətdir. Belə bir kontekstdə tikinti sənayesinin proqnozlaşdırması və planlaşırılması sahənin rəqabətqabiliyyətinin təmin olunmasının mühüm komponentidir.Hesab edirik ki, tikinti kompleksinin fəaliyyətinin proqnozlaşdırılması və planlaşdırılması maddi və qeyri maddi istehsal sahələri üzrə tikintinin həcmi ilə bağlı proqnoz hesablamalarının aparılmasını, tikinti materiallarına, avadanlıqlara, işçi qüvvəsinə olan tələbatın müəyyənləşdirilməsini tələb edir.

Tikinti kompleksinin plan-proqnoz sistemi istehsal və qeyri istehsal təyinatlı istehsal gücləri və əsas fondların dövriyyəyə daxil olmasını; texniki silahlanma, bərpa, mövcud

müəssisələrin fəaliyyətinin genişlənməsi və yeni müəssisələrinin tikilməsini; yarımçıq tikililərin istismara verilməsini; bütün obyektlər üzrə tikinti montaj işlərinə əsaslı kapital qoyuluşunu; maliyyə mənbələri və digər sahələr üzrə kapital qoyuluşlarını tələb edir.

Tikinti kompleksinin əsas göstəricisi dövriyyəyə istehsal gücləri və obyektlərinin buraxılmasıdır. Bu parametr tikinti sektoruna kapital qoyuluşlarının son nəticəsinin xarakterizə etməyə imkan yaradır. Mühüm obyektlər üzrə onların istismara verilməsi üçün dövlət sifarişləri verilir. Onun yerinə yetirilməsi üçün investisiyaların ümumi həcmi və mərkəzləşdirilmiş qaydada dövlət limiti müəyyənləşdirilir.

Podrat tikinti-quraşdırma işlərinin həcmi hesablanır, çünki həmin işlər tikinti şirkətləri ilə bağlanan podratı müqavilələrinin əsasını təşkil edir.

İlkin proqnoz mərhələsində sifarişlər əsasında tikinti xidmətlərinə olan tələb müəyyənləşdirilir, bütün bu tədbirlər isə maliyyə resursları ilə təminatı məsələsi də nəzərə alınmaqla səmərəli inestisiya layihələrinin seçilməsi ilə davam etdirilir.

Sifarışlərin yerləşdirilməsi podrat sövdələşmələrinin keçirilməsi ilə reallaşdırırlır. Sonrakı mərhələdə əsaslandırılmış həcmlərdə tikintinin maddi texniki (tikinti materialları və avadanlıq) və əmək resursları ilə təminatı məsələsinə aydınlıq gətirilir.

Tələbatların hesablanmalarından sonra resurslar müəyyənləşdirilir və ,nın istehsal edilməsi həcmi əsaslandırırlır.

Tikinti istehsalının işçi qüvvəsi resursları ilə təminatının plan-proqnozlarının əsaslandırılması üçün işçi qüvvəsinin balans hesablamaları həyata keçirilir. İşçi qüvvəsinə tələbat normativ üsullarla böyüdülmüş proqnoz hesablamalarında müəyyən edilə bilər (hər 1 milyon manatlıq tikinti-quraşdırma işlərinə düşən işçilərin sayının nisbətinə əsasən). İşçi qüvvəsinə olan tələbatla əlaqədar daha dəqiq məlumatları əmək məhsuldarlığının səviyyəsi və proqnozlaşdırılan dövrdə tikinti- quraşdırma işlərinin həcminə görə əldə etmək olar.

Konkret obyektlər üzrə işçilərin sayı işlərin fiziki həcminə, yerinə yetirilən hər iş vahidinə görə əmək məsrəflərinə əsasən müəyyənləşdirmək olar. İndiki, bazar iqtisadiyyatı münasibətlərinin dərinləşməsi ilə baş verən dəyişikliklərlə əlaqədar xalq təsərrüfatının ilkin halqalarının əhəmiyyəti artır, çünki onlar sosialyönümlü bazar iqtisadiyyatının yaradılmasının əsasını təşkil edir. Lakin eyni zamanda daha bir obyektiv zərurət kimi, bütün mülkiyyət formaları üzrə tikinti şirkətlərinin inkişaf etməsinə xidmət edən idarəetmə sisteminin təşəkkül tapmasının vacibliyi xüsusi olaraq qeyd edilməlidir.

Çağdaş dövrümüzdə tikinti sənayesində fəaliyyət göstərən müəssisə və firmalar bazar konyunkturasına uyğunlaşmalıdırlar. Belə hal mümkün olmadıqda bu özünü ilk növbədə idarəetmədə göstərir. Qeyd edilən amilin nəzərə alınması üçün tikinti sənayesi iki aspektdən proqnozlaşdırmalıdır:

- birincisi, tikinti təşkilatında rəqabətqabiliyyətliliyin idarə edilməsi baxımından,

-İkincisi, tikinti təşkilatının fəaliyyəti baxımından.

Bizim fikrimcə, tikinti sənayesinin inkişafı baxımından elmi yanaşmalarla yanaşı, tikintidə istehsalın inkişafı və bu sahədə baş verən dəyişikliklərin tikinti şikrətlərinin fəaliyyətinə təsirinin öyrənilməsi vacibdir. Bu ən azı ona görə vacibdir ki, çağdaş dövrümüzdə tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təşkilinin təmini və proqnozlaşdırması üçün həyata keçirilməlidir.

Azərbaycanda tikinti sənayesinin fəaliyyətinə təsir edən amillərdən biri də ölkədə maliyyə bazarının təşkilinin vəziyyətidir. Məlumdur ki, tikintinin maliyyələşməsində əhalinin gəlirləri hələ kifayət qədər deyildir, odur ki, onun birbaşa investisiya fəaliyyətində iştirakı qeyri-mümkündür. Ancaq, ölkədə maliyyə bazarının inkişafı lazımi səviyyədə olarsa, əhali qısa müddətə belə, müvəqqəti sərbəst pul vəsaitlərini qiymətli kağızlara yatıra bilər ki, bu da investisiya fəaliyyətində istifadə oluna bilər. Belə hal isə tikinti sənayesində rəqabətqabiliyyətliliyin təmini, eləcə də onun idarə edilməsi və proqnozlaşdırılması üçün də vacib şərtlərdəndir.

“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” qeyri-neft sektorunun 2020-ci ildən sonrakı inkişafı üzrə də tədbirlərin həyata keçirilməsini nəzərdə tutub. Belə ki, bu sənədə əsasən milli iqtisadiyyatın innovasiya təməlli modelinin daha

da inkişaf etdirilməsi istiqamətində 2025-ci ilə və daha sonrakı dövrlərə investisiya qoyuluşlarının həcminin ardıcıl olaraq artırılması hesabına Azərbaycan iqtisadiyyatının kompleks şəkildə dinamik inkişafı əsasında ümumi daxili məhsulun 75-80 %-nin qeyri-neft sektorlarında yaradılması kimi mühüm bir məqsəd müəyyənləşdirmişdir. Belə hal isə təbii olaraq tikinti sənayesinin inkişafı baxımından da vacib şərtdir.

Qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla belə hesab etmək olar ki, Azərbaycanda təsərrüfatın səmərəli idarə olunması əsaslı şəkildə bazar iqtisadi sisteminin mühüm elementi kimi investisiya prosesinin yeni modellərinin formalaşması ilə bağlıdır.

Hal-hazırda, mahiyyət etibarı ilə, investisiya fəaliyyəti biznes sahəsi kimi formalaşır, investisiya bazarı və müxtəlif investisiya institutları yaranır. Mərkəzləşdirilmiş planlı iqtisadiyyatla müqayisədə bazar iqtisadiyyatında investisiya layihələrinin seçimi və onların qiymətləndirilməsinin başqa və yeni meyarları fəaliyyət göstərir. İnvestisiya prosesi mütəhərrik, daha dəyişkən, qeyri-müəyyənlik və risk faktorının mövcud oluduğu mühitdə baş verir. Belə olan halda, investisiya tsiklinin yüksək peşakarlıqla və elmi əsaslarla idarə olunması tələb olunur. Makro və mikroiqtisadi səviyyələrdə investorlara kredit və zəmanətlərin verilməsi prosedurları, investisiyalara informasiya və texniki yardımın insitutsional strukturlarının müəyyənləşdirən investisiya proqramlarının işlənməsi məqsədəuyğun olub bu prosesin daha mükəmməl olmasını təmin edir.

Məlumdur ki, istənilən sahənin gələcək inkişafının proqnozlaşdırılması verilən göstəricilərin dəqiqliyi ilə bağlıdır. Verilən göstərici nə qədər dəqiqdirsə əldə edilən nəticə də bir o qədər dəqiq olacaqdır. Bu tikinti sənayesi müəssisələri üçün də xarakteriqdir. Təbii ki, belə hal gələcək inkişafın proqnozlaşdırılmasının dəqiqliyi və adekvatlığı ilə bağlıdır. Belə proqnozlarda tikintinin bütün seqmentlərinin nəzərə alınması faydalı olar.

Tikinti sənayesinin rəqabətqabiliyyətli idarə edilməsi və inkişaf etdirilməsi üçün aşağıdakı hədəflər qarşıya qoyulmalıdır:

- məqsədlər;
- məqsədlərin reallaşdırılmasının yolları;
- həmin məqsədlər üçün resurs bazası.

Tikinti sənayesinin rəqabətqabiliyyətli məhsul istehsal etmə üçün və tikinti bazarında öz mövqelərini gücləndirmək üçün həm cari dövr üzrə və həm də perspektiv üçün inkişaf indikatorlarını proqnozlaşdırmalıdırlar.




**Şəkil.1. Sosial-iqtisadi sistem kimi tikinti sənayesi müəssislərinin məqsədlərinin təsnifatı**

***Mənbə:*** *şəkil müəllif tərəfindən hazırlanmışdır*

Regionlarda sosial infrastruktur obyektlərinin tikintisi büdcə vəsaitlərinin məhdudluğu şəraitində həyata keçirilir, o zaman çox aşkar hiss olunur ki, məqsəd məsrəflərin minimallaşdırılmasıdır.

Göründüyü kimi, region (ölkə) əhalisinin həyat səviyyəsi nə qədər yüksəkdirsə, sosial gərginlik göstəriciləri bir o qədər aşağıdır, sosial infrastrukturda infrastruktur dəyişiklikləri tədbirləri bir o qədər səmərəli həyata keçirilmişdir.

Deyilənlərlə yanaşı, hesablama ssenarilərində mənzil tikintisi göstəricilərindəki fərqlər içərisində həmin ölkə üçün ən məqbul olan variantı müəyyən etmək olar.

Nəzərə almaq lazımdır ki, rəqabətdə heç bir bərabərlik olmur. Xüsusilə də bu texnoloji baxımdan xüsusi qabarır. Nəzərə almaq lazımdır ki, rəqabət fasiləsiz dəyişən bir mənzərədir.

Bazarda istənilən müəssisənin uğur qazanması, onun konkret strateyiyaya malik olması şərtdir. Qeyd edilən fikirdə əsas məqam ondan ibarətdir ki, istər yerli səviyyədə istərsədə beynəlxalq miqyasda rəqabət mübarizəsində müvəffəqiyyət qazanmaq istəyən tikinti firmaları bazarın elə sahəsində, elə seqmentində ixtisaslaşmalıdır ki, həmin yerdə olan firma digərlərinə nisbətən müəyyən üstünlüyə malik olmalıdırlar və bu əsas şərtlərdən biri kimi çıxış etəmlidir. Belə olan halda tikinti sənayesi həm rəqabətqabiliyyətli və həm də mövcud rəqabətqabiliyyətliliyi idarə edilməsi eləcə də onun proqnozlaşdırması mümkün olur. Başqa sözlə, məqsədlər, hədəflər və konkret iş içrasının mövcudluğu tikinti sənayesini həm rəqabətqabiliyyətli və həm də onun idarə edilməsini, proqnozlaşdırılmasını asanlaşdırır.

Tikinti sənayesinin rəngarəngliyi, işlərin konkretliyi və icra mexanizminin vaxtında yerinə yetirilməsi idarəetmənin səmərəliliyini yüksəldir. Belə yanaşma çərçivəsində proqnozlaşdırmanın idarəetmədə rolu və yerinin nəzərdə tutulması əhəmiyyətli olur.

Bütün onu deməyə əsas verir ki, tikinti müəssisələri rəqabətin bazardakı fəaliyyəti bazar təsərrüfatının bütün subyeklerini əldə etdikləri nəticə ilə qənaətlənməməyə, yeni imkanlar axtarmağa, yeni texnologiya, istehsalın və idarəetmənin təşkilinin yeni üsullarının tətbiqinə məcbur etməlidir. Ona görə də rəqabət bazar subyektlərindən daima çevik olmağı, iqtisadi dəyişikliklərə uyğunlaşmağı tələb edir. Rəqabət bazarda istehsalçını kifayət qədər çevik olmasını stimullaşdırır. Belə ki, əgər qeyd edilən hal baş verməzsə iqtisadi mübarizədə rəqabətə tab gətirməyən tərəflərin iflasa uğraması ehtimalna böyük olur. Buna görə də istehsalçılar elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin sürətləndirilməsində, əməyin təşkilinin mütərəqqi formalarının tətbiqində maraqlı olmalıdır.

Tikinti müəssisələrinin maliyyə təminatı və xərclərinin xüsusi diqqətin yetirilməsi, onun gələcək fəaliyyətinin planlaşdırmasının və proqnozlaşdırmasının rolunu artırır.

**NƏTİCƏ**

1. Araşdırmalar təsdiqləyir ki, Azərbaycanda rəqabət mühiti təşəkkül tapsa da istər qanunvericilik, istərsə də institsional idarəetmə baxımından ciddi problemlər mövcuddur. Ölkədə rəqabət mühitinin inkişaf xüsusiyyətləri isə onu göstərir ki, iqtisadiyyatın rəngarəng, şaxələnmiş və bərabər səviyyəli inkişaf getmir. Bu isə ciddi narahatlıq doğurur. Ölkədə rəqabət mühiti təşəkkül və inkişafı iqtisadiyyatımızda 2 əsas problemin həllinə kömək göstərə bilər: Fikrimizcə, onlardan birincisi istehsalda iştirak edən bütün firmalar istehlakçı üçün faydalı olan, onun üstünlük verdiyi məhsulları istehsal etməyə meyilli olacaq; ikincisi isə istehsal elə həyata keçiriləcək ki, istehsal xərcləri cəmiyyət üçün minimum olacaq, əmtəələr mümkün ən az istehsal xərcləri ilə istehsal ediləcəkdir. Bu da Azərbaycan iqtisadiyyatında sağlam rəqabətin təkmilləşməsini onun başlıca funksiyalarından olan stimullaşdırmaya güclü dəstək olacağını və ölkəyə yeni texnologiyanın gətirilməsini, rəqabət qabiliyyətli iqtisadiyyatın səmərəli quruluşunun formalaşdırılması imkanı yaradacaqdır.

2. Rəqabətqabiliyyətlilik probleminə geniş spektrli yanaşma, problemin predmetinin kifayət qədər əhatəli və dərin olmasını şərtləndirmişdir. Rəqabətqabiliyətlilik mübarizədə qalib gəlmək imkanı kimi xarakterizə olunsada iqtisadi sferada rəqabətqabiliyətlilik geniş əhatəli və mürəkkəb iqtisadi proseslərin məcmusunu özündə birləşdirir. Belə ki, iqtisadi mübarizənin subyektləri olan müəssisə və təşkilatlar rəqabət mübarizəsində üstünlüklər əldə etməsində sənaye istehsalının yerləşməsinə təsir edən amillərin xüsusilə də faydalı qazıntılarının, su energetikası

və meşə ehtiyatlarının kəmiyyət və keyfiyyət xarakteristikası, müxtəlif rayonların iqlim şəraiti, təbii su ehtiyatları və nəqliyyat yollarının rolu böyükdür.

3. Müasir qloballaşma mühitində o, milli müəssisələri rəqabətqabiliyyətli hesab etmək olar ki, orada təsərrüfat subyektləri azad və ədalətli rəqabət şəraitində dünya bazarının tələblərinə cavab verən məhsul və xidmətlər istehsal edirlər. Beynəlxalq bazarların tələblərinə cavab verən məhsul və xidmətlərin istehsalı isə öz növbəsində əhalinin real gəlirlərinin artımını təmin edir. Beləliklə, müasir dövrdə rəqabətqabiliyətliliyi əhalinin həyat səviyyəsinin yüksəldilməsi baxımından dünya bazarlarında uğurlu fəaliyyət kimi müəyyənləşdirmək olar.

4. Hazırda tikinti sənayesində maliyyə-təsərrüfat fəaliyyətinin, büdcə prosesinin eləcə də gəlirlərin təmin edilməsi məsələsində şəffaflığın olmaması tikinti sənayesində rəqabətqabiliyyətli təsərrüfatların idarə edilməsi və onların fəaliyyətinin  proqnozlaşdırması işi xeyli çətinləşir. Nəzərə almaq lazımdır ki, qeyd edilnələrin nəzərə alınması istehlakçıların inamının artmasına, tikinti sənayesi müəssisələrinin  vergi ödənişlərində daha dürüst və daha adekvat yol tutmasını şərtləndirir.

5. Tikinti sektoruna daxil olan əlaqəli sektorlar arasında texniki məsləhət xidmətləri beynəlxalq təcürbədə ön planda olur. Qlobal miqyasda texniki məsləhət xidmətləri tikinti sektorunda malik olduqları yüksək əlavə dəyərə görə xüsusi əhəmiyyətə malikdir. Texniki məsləhət xidmətləri mahiyyət etibarı ilə dərin texniki bilik və ixtisas tələb etdiyinə və tikinti layihələrinin iqtisadi həyat dövrü ərzində xidmət standartlarına birbaşa təsir edən qərarları əhatə etdiyinə görə, son dərəcə yüksək həm gəlir həm də investisiya xərclərinə malik xidmət sahəsi kimi çıxış edir.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər: [Elektron resurs] resident.az – 02 fefral, 2021.  URL:https://president.az/az/view/50474

**2.** M.A.Məmmədov, Ə.M.Əliyev. (2023). Menecment, Bakı, 287səh.

**3.** Süleymanov Q.S., Qarayev R.H. (2016). Rəqabətədavamlı inkişaf ölkənin dayanıqlı iqtiadi inkişaf strategiyasının əsasıdır//  AMEA İqtisadiyyat İnstitutu, “Elmi Əsərlər”, № 5, s. 7-15.



**R.I.Gasimov**

*PhD student, Azerbaijan University of Architecture and Construction*


## The role of forecasting in competitive management of the construction industry


**Abstract**

*The article extensively examines the role of forecasting in competitive management of the construction industry. It is further noted that at the initial forecast stage, the demand for construction services is determined based on orders, and all these measures are continued with the selection of effective investment projects, taking into account the issue of providing them with financial resources. It is emphasized that a number of features of the construction industry must be taken into account in planning and forecast calculations.*

*The article notes the need to form new models of the investment process as an important element of the market economic system for the efficient management of the economy in Azerbaijan.*

*In conclusion, it is shown that improving healthy competition in the Azerbaijani economy will provide strong support for its main functions of stimulation and will create an opportunity to introduce new technologies to the country and form an efficient structure of a competitive economy.*



***Keywords:*** *construction industry, construction complex, forecasting, competitiveness, investment process, infrastructure, construction material, construction organization.*